# Bayraqdan başlanan Vətən sevgisi: milli mənlik və vətənpərvərlik tərbiyəsi

❒ ***İstirahət günü Bakının Nizami küçəsi ilə gedərkən qarşılaşdığım mənzərə məni həm təəccübləndirdi, həm də qürurlandırdı. İkinci mərtəbədəki eyvandan böyük bir Azərbaycan bayrağı asılmışdı. Bu gözəl mənzərəni foto obyektivin yaddaşına köçürərkən bəlli oldu ki, bayraq təkcə mənim yox, həm də ətrafdakı şəhər sakinlərinin diqqətini çəkib.***

Anasına bayrağı göstərən 13-14 yaşlı oğlanın dediyi sözlər isə mənə lap xoş gəldi: "Bax, anacan, bayrağımız necə də gözəldir. Müəlliməmiz bizə deyir ki, indi Lələtəpədə də, Cocuq Mərcanlıda da bayrağımız dalğalanır. Onu orada dalğalandıran qəhrəmanlar vaxtilə bizim kimi məktəbli olublar. Mən də qardaşım kimi əsgər gedəndə bayrağımı öpüb, Vətənimizi qoruyacağam"...

Bəli, bu gün Azərbaycan gəncliyi təkcə dünyagörüşü, intellekti və əldə etdiyi nailiyyətlərlə deyil, həm də milli mənliyi, Vətən sevgisi və milli amalları ilə fərqlənir. Və gənclərin elə uşaq yaşlarından milli duyğularla böyüməsində həm ailənin, həm məktəbəqədər müəssisələrin, orta və ali məktəblərin, həm də cəmiyyətin və dövlətin rolu və təsiri böyükdür. Odur ki, dövlətin gənclər siyasətində bu vacib məqamlar öz əksini tapır.

Qəbul edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına gənclərin vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi məsələləri də önəmli strateji cəhət kimi daxil edilib. Bu, bir daha dövlətin Azərbaycan gənclərinin həm də dövlətinə, xalqının tarixinə sevgi ruhunda böyüməsi və milli maraqlara xidmət etməsi, milli mənlik şüurunun formalaşmasına önəm verdiyini sübut edir. Çünki dövlətin və millətin əmin əllərdə işıqlı sabahlara doğru addımlaması üçün gənclərimizin savadlı və dünyagörüşlü olması ilə yanaşı, vətənpərvərliyi də önəmlidir. Bu baxımdan Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Komitəsinin nəzdində fəaliyyət göstərən Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi (keçmiş adı Azərbaycanın Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyəti) hərbi vətənpərvərlik və çağırışaqədək hazırlıq şöbəsinin müdiri Rahib Bayramov hesab edir ki, gənclərdə xüsusilə də hərbi xidmət yaşına çatmış oğlanlarda həm texniki bilik və bacarıqlarının, həm də hərbi vətənpərvərlik ruhunun yüksək olması vacib şərtdir.

Ona görə də Prezident İlham Əliyevin 13 iyul 2012-ci il tarixli fərmanına əsasən, yaradılmış bu qurum öz fəaliyyətində hərbi çağırışçı gəncləri hərtərəfli hazırlamaq, onlardan ordumuz üçün bacarıqlı kadr yetişdirməkdir.

### *Mərkəzin əməkdaşı: Ordumuza layiqli kadrlar hazırlayırıq*



"Bu gün gənclərimiz arasında ruh yüksəkliyi, Vətənə məhəbbət hissi güclüdür. Biz bunu xüsusilə bizim mərkəzdə təlim alan hərbi çağırış yaşına çatmış gənclərdə daha çox görürük. Qeyd edim ki, mərkəzimiz Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidmətinin tələbinə uyğun olaraq, ordumuzun hərbçi çağırışçılarının böyük bir hissəsini bizim mərkəz hazırlayır. Gənclər müxtəlif istiqamətlər üzrə kadr olaraq yetişirlər. Onların bizim mərkəzdə öyrəndikləri bilik və bacarıqlar hərbi xidmət dövründə onlara çox kömək olur. Onların uğurlu hərbi xidmət keçməsi və nailiyyətləri bizi də sevindirir. Hərbi xidmətdən sonra da biz onlarla maraqlanır, mütəmadi əlaqələr saxlayırıq", – deyə Rahib Bayramov əlavə edir.

Onun sözlərinə görə, əvvəllər Azərbaycanın Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyəti adı ilə fəaliyyət göstərdiyi dövrdə bir çox gənc qız da daxil olmaqla, təşkil edilmiş müxtəlif kurslardan (paraşütçülük, snayper və s.) yararlanıb silahla davranış qaydalarına, atıcılığın və özünümüdafiənin sirlərinə yiyələniblər. Hazırda isə Nazirlər Kabinetinin qərarına əsasən, xüsusi proqram əsasında mərkəz ancaq hərbi çağırışçıları hazırlayır və Azərbaycan Silahlı Qüvvələrini hazırlıqlı kadrlarla təmin edir ki, bu hal da təqdirəlayiqdir: "Hesab edirəm ki, bu, düzgün yanaşmadır. Artıq mərkəzimizdə sırf ordumuz üçün müxtəlif ixtisaslar üzrə mütəxəssis – kəşfiyyatçı, snayper... hazırlığı aparılır. Onlar bu peşələrə yiyələnməklə yanaşı, həmçinin hərbi hissədə davranış qaydaları ilə də tanış olurlar. Onların hərbi vətənpərvərlik ruhunun daha da yüksəldilməsi, şəxsiyyət kimi formalaşması məqsədilə proqram çərçivəsində işlər aparılır."

Məktəb şagirdləri arasında mütəmadi olaraq həyata keçirilən "şahin" hərbi oyunları, atıcılıq turnirləri, özünümüdafiə ilə bağlı tədbirlər gənclərin vətənpərlik hisslərinin formalaşmasına öz müsbət təsirini göstərir, həmçinin həm fiziki, həm də mənəvi cəhətdən sağlam gəncliyin yetişməsinə öz töhfəsini verir.

Bu baxımdan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən Bakı şəhərində yerləşən orta ümumtəhsil məktəblərinin şagirdləri arasında Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyinə həsr olunmuş atıcılıq turnirinin təşkili olduqca əhəmiyyətlidir. Bu kimi yarışlarda məhz gələcəyin qəhrəmanları, vətənpərvər gəncləri formalaşmaqdadır. Mübariz İbrahimov kimi, Fərid kimi və ondan sonra Azərbaycan bayrağını işğaldan azad edilmiş torpaqlarda, Lələtəpədə dalğalandıran qəhrəman oğullar kimi...

### *Aprel döyüşləri yeni vətənpərvər qəhrəmanlar yetişdirdi...*

Mübariz İbrahimovun 2010-cu ildə məktubunda "Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam – ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim", – yazaraq təkbaşına düşmən təxribatının qarşısını alması və son anadək mübarizə aparması Azərbaycan gəncliyinin içində alovlanan Vətən sevgisi və Qarabağ həsrətinin ən yüksək təzahürü idi. Azərbaycanın Milli Qəhrəmanı adını almış şəhidimizin bu hünəri bütün dünyaya Azərbaycan gəncinin torpağını qorumaq üçün nəyə qadir olduğunu sübut etdi. Prezident İlham Əliyevin Milli Qəhrəman Mübariz İbrahimovla vida mərasimindəki çıxışında "Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz bütün gənclər üçün örnəkdir, nümunədir" – deməsi Ali Baş Komandanın gənclərə həm də bir mesajı, tövsiyəsi idi.

2016-cı ilin apreli. İşğalçı düşməni vəlvələyə salan dördgünlük müharibə. Erməni hərbi birləşmələrinin təxribatının qarşısını uğurla almış Azərbaycan Ordusu işğalçılara öz gücünü və səbrinin tükənməz olduğunu nümayiş etdirdi. Bu dördgünlük döyüşlərdə yeni-yeni qəhrəmanlıq hekayələri yazıldı: polkovnik-leytenant Raquf Orucov, pilotlar Urfan Vəlizadə, Təbriz Musazadə, Əbubəkir İsmayılov, gizir Pəncəli Teymurov, polkovnik-leytenant Murad Mirzəyev və yüzlərlə digər gənc oğulların Vətənə məhəbbət və şəhadət dərsi kimi...

Onların hər biri Vətənin bütövlüyü uğrunda canlarından keçərək Azərbaycan gəncliyinin mərdliyini, rəşadətini, torpağa sədaqət andını nümayiş etdirdilər.

Uzun illərdir gənclər sektorunda fəaliyyət göstərən Gənc Vətənpərvərlər Birliyinin sədri Müqamət Əliyevlə söhbətimizdə gənclərin vətənpərvərlik tərbiyəsi və bununla bağlı görülən işlərdən danışdıq. Həmsöhbətim deyir ki, hər zaman gənclərlə görüşündə onların fiziki hazırlığı ilə yanaşı, hərbi vətənpərvərlik tərbiyəsinin vacib olduğunu xatırladır: "Çünki fiziki hazırlıqlı hər bir gənc nə üçün mübarizə apardığını dərk etməlidir. Müstəqil Azərbaycan Respublikasının təhlükəsizliyi onun silahlı qüvvələrinin hazırlığından asılıdır. Odur ki, gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin yüksədilməsi günün ən aktual tələblərindəndir".

Qürurverici haldır ki, ölkəmizdə vətəndaş cəmiyyətinin formalaşmasında fəallıq göstərən gənclər təşkilatların sayı 200-dən artıqdır və Azərbaycan gəncləri, beynəlxalq qurumlarda da təmsil olunmaqla, dövlətimizi ən yüksək səviyyədə təmsil edirlər. Bu, Azərbaycan həqiqətlərinin həm də beynəlxalq aləmə yayılması ilə yanaşı, gənclərimizin vətənsevərlik nümunəsidir. Qloballaşan dünyada müasir virtual aləmin aktual məsələlərindən olan sosial media gənclərimiz üçün dünyaya açılan pəncərə olmaqla, həm də informasiya müharibəsində bir platformadır. Bugün yüksək intellekt, təhsil, dünyagörüşü və millət sevgisi ilə silahlanmış gənclər virtual aləmdə bir əsgərdir. Məqsəd informasiya məkanında milli maraqlarımızı müdafiə etmək, Azərbaycan həqiqətlərini çatdırmaq və informasiya hücumlarının qarşısını almaqdır. Təkcə elə "Virtual Qarabağ" İKT Mərkəzinin yaradılması və bu mərkəzin mütəmadi olaraq hazırladığı filmlər, Ermənistan tərəfindən işğal edilmiş rayonların 3 D formatında görüntülərinin əks edilməsi və ictimaiyyətə təqdim edilməsi, sosial mediada, xüsusilə də Tvitterdə müxtəlif dillərdə ölkəmizlə, Qarabağ həqiqətləri, erməni hərbi təcavüzü ilə bağlı müxtəlif əcnəbi dillərdə obyektiv və məqsədyönlü informasiya axınının təmin edilməsi buna sübutdur.

### *"Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı"*

Bu yaxınlarda bütün dünya Azərbaycan Ordusunun yaradılmasının 100 illiyi münasibətilə keçirilmiş möhtəşəm hərbi paradın şahidi oldu.

Azadlıq meydanında keçirilən hərbi paradın Azərbaycan Silahlı Qüvvələrinin gücünü və ölkəmizin hərbi potensialını nümayiş etdirməsi, dost ölkələri sevindirsə də, düşmən qüvvələri təşvişə saldı.

Prezident İlham Əliyevin çıxışında vətənpərvər gəncləri yüksək dəyərləndirməsi qəlbimizdə sabahkı qələbəyə inam hissini daha da artırdı. Bir müddət əvvəl ordumuzun Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Günnüt kəndini (ətrafdakı böyük bir ərazini) erməni işğalından azad etməsi gələcək qələbələrin də uzaqda olmadığını göstərdi. Ordumuzun gənc hərbi heyətinin uğurlu əməliyyatı 20 ildən artıq dədə-baba yurdlarının həsrəti ilə yaşayan Günnüt sakinlərini sevinc göz yaşlarına qərq etdi: "Var olsun ordumuz, yaşasın Azərbaycan əsgəri" – deyən günnütlülər doğma kəndlərinə qovuşdu. Azərbaycan gəncinin və ordusunun böyük qələbəsi hələ qarşıdadır.

Bu gün gənclərin milli ruhda tərbiyəsi, onlara vətənpərvərlik şüurunun aşılanması aktual məsələdir. Bu sahədə tədris ocaqlarının, valideynlərin, ictimai rəyə təsir gücünə malik KİV-in əvəzsiz rolu var. Məktəb və universitetlərdə veteranlarla, Qarabağ döyüşçüləri ilə görüşlərin təşkili, ölkəmizin tarixi, mədəniyyəti, adət-ənənələrini tanıdan layihələrin sayının artırılması, QHT sektorunun gənclərin fəallığının gücləndirilməsi, hərbi idman yarışlarının keçirilməsi istiqamətində gördüyü işlər bu sahəyə töhfələr verə bilər.

Gənclərlə, əsgərlərlə görüşlərində həmişə onların yanında olduğunu hiss etdirən Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi paradda da bunu nümayiş etdirdi: "Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, iqtisadi güc bizdədir, hərbi güc bizdədir, vətənpərvərlik ruhu bizdədir. Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirir, bir daha Azərbaycan xalqını əmin edir ki, o, tam arxayın ola bilər".

Ordumuzun hərbi paradını qürurla izləyən vətəndaşlar hərbçilərimizin nümayiş etdirdiyi əzəmətlə dalğalanan bayrağımıza fəxrlə baxırdılar. Çünki onlar qələbə rəmzi kimi 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarımızda dalğalandırılmış bayraqlar idi.

Ali Baş Komandan İlham Əliyevin "Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq" – deməsi vətənpərvər gənclər başda olmaqla, ordumuzu və xalqımızı daha yeni qələbələrə səsləyir...

***Əfsanə BAYRAMQIZI,***
***"Xalq qəzeti"***

***Məqalə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü və 22 iyul – Azərbaycan Milli Mətbuatının yaranmasının 143-cü ildönümü ilə əlaqədar keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinə təqdim edilir.***